

www.britishcouncil.org/parents

Bu kitabça valideynlərə yardım etmək üçün British Council tərəfindən sifariş edilən kitabça seriyalarından biridir.
Opal Dunn, Böyük Britaniyalı müəllif və təhsil üzrə məsləhətçi tərəfindən yazılmışdır.

©British Council 2008

**Böyük Britaniyanın mədəni əlaqələr və təhsil imkanları üzrə beynəlxalq təşkilatı.**
A registered charity: 209131 (England and Wales) SC037733 (Scotland).

BRITISH COUNCIL

# İngilis dilinin ailədə öyrənilməsi



Birlikdə öyrənmək əyləncəlidir!



Uşağınızla ingilis dilində danışmaq



Uşaqlar fiziki cəhətdən iştirak etdikləri çalışma zamanı dil öyrənirlər. Əgər həmin çalışma onlara bundan əvvəlki dövrlərdə təqdim edilmişdirsə və onlar həmin çalışmanın tərkibini başa düşüblərsə, bu zaman onlar özlərini daha rahat hiss edir və öz diqqətlərini ingilis dilini başa düşmək və öyrənməyə yönəldirlər.

Dərslərin yalnız ingilis dilində keçirildiyi hallarda çalışmalar qısa olmalıdır. Ona görə ki, bu zaman uşaqların diqqət dairəsi adətən ana dilində olduğu qədər geniş olmur. Yalnız ingilis dilində qulaq asmaq yorucu ola bilər.

## Həvəsləndirmə və tərif

Azyaşlı uşaqlar valideynlərindən tərif gözləyirlər. Onlar özlərini yaxşı hiss etməli və ingilis dilinin öyrənilməsində nailiyyətlər qazandıqlarının fərqində olmalıdırlar. Həm analarından, həm atalarından, həm də digər ailə üzvlərindən daimi dəstək, həvəsləndirmə və tərif almaq onların özünə inamını möhkəmləndirir və həvəslərini artırır. Öyrənmənin ilkin mərhələlərində həvəsləndirmə xüsusilə vacibdir və hər bir kiçik nailiyyətin təriflənməsi həvəsləndirməni təmin edir. "Bu yaxşıdır, xoşuma gəldi. Əla!"

İngilis dilində danışmağa başlama mərhələsi azyaşlı uşaqların valideynlərinin yardımına ən çox ehtiyac duyduqları zamandır. Uşaqlar danışa, qafiyələr deyə və bəzi hekayələri əzbər bildikdən sonra onlara göstərilən yardım nisbətən azaldıla bilər. Bu mərhələdə ingilis dilində olan ifadələr, qafiyələr və hekayələr əyləncəli formada ailə həyatına daxil edilmiş olur. Ailə daxilində istifadə edilən ingilis dili fərdləri bir-birinə bağlayır və nisbətən daimi olur. Bu isə ingilis və digər mədəniyyətlərə qarşı həyat boyu müsbət bir yanaşmanın əsasını təşkil edə bilər. Hal-hazırda ümumən qəbul edilir ki, ömürlük münasibət tərzləri səkkiz və ya doqquz yaşdan əvvəlki dövrdə - uşaq yaşda təşəkkül tapır.

Əlavə məlumatlar əldə etmək üçün:
www.britishcouncil.org/parents





## Uşağınıza yardım etmək üçün ingilis dilində danışmaq

Uşaqlar ana dillərini əsasən öz valideynlərindən öyrənirlər. Uşaqlar iki yaşadək dil və necə danışmaq barədə informasiyanı əsasən "valideyn dilindən", yəni analarından, onun səsindən və xüsusi danışıq üslubundan öyrənirlər.

Valideynlərin ingilis dili qabiliyyətləri çox bəsit səviyyədə olsa da, onlar azyaşlı uşaqlarının ingilis dilini öyrənmələrinə həmin valideyn dili vasitələrindən istifadə etməklə və onları uyğunlaşdırmaqla yardım göstərə bilərlər.

Valideynlər ingilis dili ləhcələrinə görə narahatlıq keçirə bilərlər. Azyaşlı uşaqlar öz ləhcələrini ingilis dilli mühitə uyğunlaşdırmaq baxımından dəyişməklə əlaqədar çox qabiliyyətli olurlar. Azyaşlı uşaqlar "ingilis dilində danışmaq" və "ingilis dilini xoşlamaq" xüsusiyyətlərinə malik olmalıdırlar. Valideynlər ilk dərslərdən etibarən uşaqlarının belə düşünmələrinə şərait yarada bilərlər.



## Valideynlərin yardımı niyə ən effektivdir?

- Valideynlər uşaqları ilə vaxt keçirməklə diqqətlərini onlara yönəldə bilərlər.
- Valideynlər ingilis dili dərslərini uşağın və özlərinin ehtiyaclarına uyğunlaşdırmaq üçün günün istənilən vaxtında keçə bilərlər.
- Valideynlər ingilis dili dərslərinin müddətini tənzimləyə və uşağın ehtiyacları, maraqları və diqqətini cəmləşdirmək qabiliyyətinə uyğun çalışmalar seçə bilərlər.
- Valideynlər öz uşaqlarını daha yaxından başa düşür və onların fərdi dil öyrənmə qabiliyyətlərinə müvafiq ingilis dili üslubunu daha dəqiq təxmin edə bilirlər.
- Valideynlər öz uşaqlarının əhval-ruhiyyələrini daha yaxşı başa düşə və onlara reaksiya verə bilərlər. Uşaqlar bəzi günlərdə dil qabiliyyətlərini daha yaxşı, bəzi günlərdə isə nisbətən zəif mənimsəmə potensiallarına malik olurlar.
- Valideynlər bütöv bir sinifə deyil, fərdlə işlədiklərinə görə sessiyaları daha əyləncəli formada təşkil edə bilərlər.
- Valideynlər ingilis mədəniyyətini ailə həyatına daxil edərək, uşaqlarının öz mədəniyyətlərini və həmçinin ingilis mədəniyyətini daha yaxşı başa düşməsinə şərait yarada bilərlər və onların dünya görüşünü genişləndirə bilərlər.



## İngilis dili dərsləri



İngilis dili dərsləri vəziyyətə görə bir neçə dəqiqədən on dəqiqəyədək davam edə bilər. Bu dərsləri gündə bir və ya iki dəfə keçirmək olar. İngilis dilindən nə qədər çox istifadə edilərsə, uşaqlar bu dili o qədər tez mənimsəyərlər.

İngilis dili dərsləri zamanı valideynlər heç bir maneə olmadan bütün diqqətlərini uşaqlara yönəltməlidirlər. Azyaşlı uşaqlar ingilis dili dərslərini sevirlər, çünki ingilis dili onlar üçün ailələrinin maneəsiz marağını cəlb edə bildikləri xüsusi bir zaman kəsiyidir.

Azyaşlı uşaqlar məntiqli fikirləşirlər. Həm özləri, həm də ailələri ana dilində danışa bildiklərinə görə onlar ingilis dilində danışmaq üçün səbəb axtarırlar.

Onlar ana dilindən ingilis dilinə keçməkdə çətinliyə düşə bilərlər. Ona görə də hazırlaşmaq zəruridir: "*Üç dəqiqədən sonra ingilis dili dərsi başlayır.*" İngilis dili dərslərinə hazırlıq görmək, otağın xüsusi bir yerinə keçmək də olar: "*Gəl divanda oturaq. Gəl indi ingilis dilində danışaq.*" Yeni bir çalışmaya keçməzdən əvvəl isinişmə üçün ingilis dilində saymaq və ya tanış qafiyə söyləmək də faydalı ola bilər.



Azyaşlı uşaqlar daha yaxşı danışmağa başladıqca ingilis dilində olan bir cümlənin içərisinə öz ana dillərindən bir söz əlavə edə bilərlər. Çünki onlar həmin sözün ingilis dilindəki qarşılığını hələ öyrənməyiblər. Məsələn: "He's eating a (...)." Valideyn yalnız ingilis dilindən istifadə etməklə həmin cümləni təkrarladıqda uşaq ingilis dilindəki sözü öyrənir. "He's eating a **plum**", "**A plum**".



## Hansı hallarda tərcümə etməli

Azyaşlı uşaqların qavrama qabiliyyəti lazımınca qiymətləndirilməlidir. Onlar ingilis dilində dəyə bildiklərindən çox başa düşürlər. Belə ki, onlar öz ana dillərində eşitdikləri yalnız bir neçə sözü başa düşməyə və mənanın yerdə qalan hissəsini danışan şəxsin hərəkətlərindən və ətrafdakı işarələrdən istifadə etməklə doldururlar. Valideyn dilindən istifadə edildikdə, onlar bu bacarıqlardan ingilis dilindəki mənaları başa düşmək üçün də istifadə edirlər.

Yeni anlayışlar və ifadələr eyni vaxtda təqdim edildikdə yalnız bircə dəfə qısa tərcümə vermək zəruri ola bilər. Lakin söz və ifadələrin tərcüməsini yalnız pıçıltı ilə demək və dərhal ingilis dilindəki ifadənin deyilməsi vacibdir. Tərcümə bir dəfədən çox verildikdə və növbəti dərslərdə təkrarlandıqda uşaqlar buna öyrəşə və ingilis dilini başa düşmək üçün öz bacarıqlarından istifadə etmək əvəzinə tərcüməni gözləməyə öyrəşərlər.







## Valideyn dili nədir?

Valideyn dili azyaşlı uşağın danışıq üslubu ilə səsləşən, ona uyğun gələn, uşaqla dialoq qurulmasını təmin edən və onun sonrakı nailiyyətlərinə rəhbərlik edən bir danışıq tərzidir. Qadınlar fitri olaraq valideyn dili istifadəçiləri kimi çıxış edirlər. Bəzi kişilər isə öz nitqlərini spesifik əşyalar - şəkilli kitablar və ya oyunlar - üzərində qurmadıqda çətinlik çəkirlər. Lakin uşaqlar, xüsusilə də oğlan uşaqları kişilərin fərqli danışıq üslublarını nəzərə alaraq kişi rol modellərinə ehtiyac duyurlar. Kişilər öz nitqlərində daha texniki bir yanaşmaya meyllənirlər və az danışırlar.



Daha yumşaq, şəfqətli bir səs və asan bir nitqdən istifadə edən valideynlər qeyri-ixtiyari olaraq öz uşaqlarına aşağıdakı çalışmalar vasitəsilə rəhbərlik edirlər:

- Baş verənlər barədə ardıcıl şərhlər: *"Let's put it here." "There." "Look. I've put it on the table." "Which one do you like?" [fasilə] "Oh, I like this one." "The red one."*
- Böyüklərin istifadə etdikləri üslubdan fərqli olaraq, faydalı nitq üslublarından daha çox istifadə etmək: təbii olaraq baş verən təkrar uşağa öyrəndiklərini möhkəmləndirməkdə yardımçı olur. Valideyn üçün bu, darıxdırıcı olsa da, uşaq üçün belə olmur.
- Uşağın söylədiklərini genişləndirərək əks etdirmək. Məsələn, uşaq *"yellow"* dedikdə valideynin cavabı *"You like the yellow one, here it is." "Here's the yellow one. Let's see, yellow, red, and here's the brown one. I like the brown one, do you?"* [fasilə].
- Daha yavaş danışmaq və nitqin ahəngini pozmadan yeni sözləri təbii formada vurğulamaq: *"Which rhyme shall we say today? You can choose."* [uşağın seçməsini gözləyin].







- İngilis dili sessiyaları və eləcə də çalışmaları və oyunlarını həyata keçirmək üçün hər dəfə eyni ifadələrdən istifadə etmək. Uşağın qavrama qabiliyyəti artdıqca bu sadə ifadələr genişləndirilir. Məsələn: *"Let's play Simon says." "Stand here." "In front of me." That's right." "Are you ready?"*
- Qavrama qabiliyyətinə yardım etmək üçün üz ifadələri və jestlərdən istifadə etmək.
- Tərəddüdlü uşağı danışmağa həvəsləndirmək və onların özünə inamını təzələmək üçün birbaşa *münasibət* zamanı göz təmasından istifadə etmək.
- Uşaqlar cavab verməzdən əvvəl eşitdikləri ifadəni fikirləşməyə ehtiyac hiss etdiklərinə görə, uzun fasilə olsa belə, onların cavabını gözləmək. Bununla belə danışıq məhdud səviyyədə qalarsa, fasilələrin daha da uzadılması oyuna zövq və maraq qatır.

Bəzi valideynlər səhnələşdirməyi və valideyn dilindən istifadəni utandırıcı hesab edirlər. Bununla belə, uşaqların öz ana dillərində bu təbii "mini-dərslərlə" yaxından tanış olduğuna görə onların ingilis dilini mənimsəməsi daha da asanlaşır. Yeni dil və ya çalışmalar istisna olmaqla, azyaşlı uşaqlar bir dəfə danışmağa başladıqda valideynlər təbii olaraq valideyn dilindən istifadəyə daha az ehtiyac hiss edirlər.





# İngilis dilindən istifadə

Valideynlər oyunlar və ya "qafiyə vaxtı" kimi uşaqların inamlı olduğu və nə olacağını təxmin edə biləcəkləri çalışmalarda kifayət qədər təkrarlama vasitəsilə, basit ingilis dili bacarıqlarından istifadə etməklə öz uşaqlarına ingilis dilində fikirləşməyə başlamaqda yardımçı olurlar. Azyaşlı uşaqlar aşağıdakı mövzular barədə ingilis dilində danışmağa həvəsli olurlar:

- Özləri və xoşladıqları: *"I like* (xoşlayıram), *I don't like* (xoşlamıram), *... yuk* (iyrənc!)"
- Nə etdikləri: *"I went to* (getdim), *I saw* (gördüm), *I ate* (yedim) ... "
- *"I am sad* (qəmginəm), *she is cross* (o hirslidir)."

Valideynlər şəkilli kitabları birgə öyrənməklə və ya şəkillər və fotolardan istifadə etməklə öz kitablarını düzəldərək uşaqlara yardım edə bilərlər.



Ana dilini öyrənən azyaşlı uşaqlar müxtəlif vəziyyətlərə uyğun basit ifadələr tapmaq bacarığını əldə edirlər: *"All gone"* (hər şey bitdi). Valideynlər ingilis dilindəki ifadələri eyni üsulla transfer etdikdə, uşaqlar onları tezliklə mənimsəyirlər.

Uşaqlar məktəbdə öyrəndikləri ingilis dili bacarıqlarını sınaqdan keçirməli olduqda aşağıdakı ifadələrdən istifadə edin: *"What's your name?" "How old are you?" "What's this?" "That's a pencil."* Valideynlər yalnız ingilis dilində danışan oyuncaqdan istifadə etməklə həmin oyuncağa suallar verə və ondan cavab alırmış kimi davranaraq bunu əyləncəli bir çalışmaya çevirə bilərlər.



